# AZƏRBAYCANDIR

Bilməyənlər bilsin, bilənlər bilir,
Həqiqət meyarı—Azərbaycandır!
Yad eldə xoşbəxtlik axtaran könül,
Xoşbəxtlik diyarı—Azərbaycandır!
Yenə də qaynadı damarda qanım,
Olmasın vətənsiz heç bircə anım,
Əbədi cənnətdir Azərbaycanım,
Qəlblərin gülzarı—Azərbaycandır!
Yenə bələnibdi bağçalar bara,
Yamaclar çiçəyə, zirvələr qara,
Nə qədər istəsən dünyanı ara,
Cənnətlər diyarı—Azərbaycandır!
Gözlərimin nuru, başımın tacı,
Arzumun məkanı, dərdim əlacı,
Elşadam, çəksəm də nə qədər acı,
Könlümün qübarı—Azərbaycandır!

**Elşad ƏLİZADƏ.**